No. 56676*

Turkey
and
Azerbaijan

Agreement between the Government of the Republic of Turkey and the Government of the Republic of Azerbaijan on partnership and cooperation. Baku, 6 November 2007

Entry into force: *7 June 2013, in accordance with article 33*

Authentic texts: *Azerbaijani and Turkish*

Registration with the Secretariat of the United Nations: *Turkey, 1 May 2021*

No UNTS volume number has yet been determined for this record. The Text(s) reproduced below, if attached, are the authentic texts of the agreement /action attachment as submitted for registration and publication to the Secretariat. For ease of reference they were sequentially paginated. Translations, if attached, are not final and are provided for information only.

Turquie
et
Azerbaïdjan

Accord entre le Gouvernement de la République turque et le Gouvernement de la République d'Azerbaïdjan relatif au partenariat et à la coopération. Bakou, 6 novembre 2007

Entrée en vigueur : *7 juin 2013, conformément à l'article 33*

Textes authentiques : *azerbaïdjanais et turc*

Enregistrement auprès du Secrétariat de l'Organisation des Nations Unies : *Turquie, 1er mai 2021*

Aucun numéro de volume n'a encore été attribué à ce dossier. Les textes disponibles qui sont reproduits ci-dessous sont les textes originaux de l'accord ou de l'action tels que soumis pour enregistrement. Par souci de clarté, leurs pages ont été numérotées. Les traductions qui accompagnent ces textes ne sont pas définitives et sont fournies uniquement à titre d'information.

[AZERBAIJANI TEXT – TEXTE AZERBAÏDJANAIS]

TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ

Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

- 13 aprel 2004-cü il tarixli "Uzunmüddətli İqtisadi və Ticarət Əməkdaşlığı Sazişi" ilə yanaşı, iki ölkə arasında qüvvədə olan digər saziş, protokol və müqavilələr ilə yaradılmış hüquqi zəmində qurulmuş əlaqələrin gücləndirilməsi və dərinləşdirilməsi məqsədilə tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin qurulması arzularını ifadə edərək,
- İki ölkə xalqları arasında olan yaxın münasibətləri və tarixi və mədəni əlaqələri nəzərə alaraq,
- Tərəflərin ÜTT prinsipləri əsasında ticarətin liberallaşdırılmasının tərəfdarı olduqlarını nəzərə alaraq,
- Bu Sazişin, iqtisadi inkişaf və texniki tərəqqi üçün lazım olan ticarət və investisiyaların inkişafı başda olmaqla, tərəflər arasında iqtisadi əlaqələr üçün yeni bir mühit təmin edəcəyinə inanaraq,
- Ticarət və iqtisadi əlaqələrin ümumi mənafe və qarşılıqlı fayda əsasında və uzunmüddətli və davamlı bir təməl üzərində qurulması və daha da inkişaf etdirilməsini, habelə ölkələrin iqtisadi potensialından daha yüksək səviyyədə istifadə edilməsini və hər iki ölkə xalqlarının rifahının daha da yüksəldilməsini qarşıya məqsəd qoyaraq,

aşağıdakı məsələlər üzrə razılığa gəlmişlər.

Anlayışlar
Maddə 1

Bu Sazişin məqsədləri baxımından,

a. "Tarif" Tərəflərin Tarif Təsnifatlarına əsaslanan tarif dərəcələri və bənzər təsirə malik yığımlar deməkdir,
b. "Qeyri-tarif maneələr" tarifdən kənar Tərəflər arasında idxalı məhdudlaşdırıcı və ticarətə mane olan təsirlərə malik bütün tədbir, icraat və ya prosedurlar deməkdir,
c. "Mallar" Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonik Sistemdə göstərilən malları əhatə edir.

Məqsədlər
Maddə 2

Bu Sazişin məqsədi, Türkiyə ilə Azərbaycan arasında ticarət əlaqələrinin, xüsusilə

a. Maddə 3-də nəzərdə tutulmuş ümumi prinsiplər,
b. Tariflərin azaldılması və qeyri-tarif maneələrin aradan qaldırılması,
c. Ticarətin Tərəflər arasında olan iqtisadi əlaqələrin davamlı inkişafına töhvə verəcək şəkildə təşviqi və artırılması,
d. Tərəflər arasında ədalətli rəqabətə imkan verən şərtlərin yaradılması,
e. Tərəflər arasında ticarətin davamlı surətdə artırılması üçün daha uzunmüddətli və təhlükəsiz şəraitin yaradılması,
f. Tərəflər arasında ticarət mübadilənin diversifikasiyasına imkan yaradılması

vasitəsilə gücləndirilməsidir.

Ümumi Prinsiplər
Maddə 3

Bu Saziş, iqtisadi inkişaf səviyyələrini, xarici ticarət həcmini, gömrük rüsumu siyasətlərini və idxal prosedurlarını nəzərə almaqla, Tərəflərin eyni səviyyədə fayda əldə etməsi məqsədilə qarşılıqlı mənafelərin tam bərabərliyi əsasında həyata keçiriləcək.

Ticarət və İqtisadi Əməkdaşlıq
Maddə 4

Tərəflər arasında ticarət və iqtisadi əməkdaşlıq məsələlərində yaradılmış davamlı dialoq, ticari və iqtisadi yaxınlaşmanın artırılması, iki ölkə arasındakı əlaqələrə dəstək verilməsi və əməkdaşlığın yeni müstəvilərə çıxarılmasına töhvə vermək məqsədilə inkişaf etdiriləcək və təkmilləşdiriləcək.

Maddə 5

Tərəflər, öz ölkələrində idxal və ixraca tətbiq olunan "Tarif" və digər bu kimi ödənişlərlə bağlı bir-birinə ən əlverişli rejim prinsipini tətbiq edəcəklər.

Bu maddənin müddəaları:

- Sərhədyanı ticarəti asanlaşdırmaq üçün qonşu ölkələrə verilən imtiyazlara,
- Gömrük birliyi və ya azad ticarət zonası kimi tərəf olduqları və ya ola biləcəkləri sazişlərdən irəli gələn imtiyazlara,
- İnkişaf etməkdə olan ölkələr ilə ticari və iqtisadi əlaqələr sahəsində xüsusi razılıqlarla təmin edilən imtiyazlara

tətbiq edilməyəcək.

Maddə 6

Tərəflər razılaşırlar ki, azad tranzit prinsipi bu Sazişin məqsədlərinə nail olmaq üçün əsas şərtdir.

Bununla əlaqədar olaraq hər bir Tərəf gömrük ərazisindən çıxan və ya digər Tərəfin gömrük ərazisi üçün nəzərdə tutulmuş malların öz ərazisindən məhdudiyyətsiz tranzit daşınmasını təmin edir.

Tərəflər arasında GATT-ın 5-ci maddəsinin 2, 3, 4 və 5-ci bəndlərində göstərilən müddəalar tərəflər arasında tətbiq edilir.

Bu Maddədə göstərilən müddəalar, Tərəflər arasında xüsusilə nəqliyyat kimi sektorlar və müxtəlif məhsullar barədə bağlanılmış və ya bağlanılacaq sazişlərə və qoşulduqları beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərə xələl gətirməz.

Maddə 7

Beynəlxalq müqavilələrdən irəli gələn hüquqların və öhdəliklərin toxunulmaz qalması şərtilə, Tərəflər müvəqqəti idxalda gömrük rüsumu almayacaqlar.

Milli Münasibət
Maddə 8

Hər hansı bir Tərəfin digər Tərəfin ölkəsinə idxal edilmiş mallar üzrə qanunvericilikdə nəzərdə tutulmuş "Tarif" və müvafiq vergilər ödənildikdən sonra bu malların satışı, satış təklifi, alışı, nəqliyyatı, paylanması və istifadəsinə təsir göstərən qanunlar və qaydalar baxımından milli mənşəli mallara göstərilən münasibətdən az əlverişli münasibət göstərilməyəcək.

Maddə 9

İki ölkə arasında ticarət əlaqələrinin inkişafına maneçilik törədən qeyri-tarif maneələr, beynəlxalq öhdəliklər və milli qanunvericiliklər çərçivəsində aradan qaldırılacaq.

Maddə 10

Tərəflər ticarət həcminin artırılması üçün Preferensial Ticarət Sazişi də daxil olmaqla, bütün lazımi hüquqi tənzimləmələrin həyata keçirilməsi məqsədilə müzakirələri başladacaqlar.

Maddə 11

Hər hansı bir məhsulun Tərəflərin birinə, həmin və ya buna bənzər məhsulun yerli istehsalçılarına zərər verəcək və ya zərər vermək təhdidi yaradacaq miqdarda və ya şərtlərdə idxal edilməsi halında Tərəflər Ümumdünya Ticarət Təşkilatının Müdafiə Tədbirləri Sazişi çərçivəsində tədbir görmək hüquqlarına malikdirlər.

Tərəflər, GATT-ın VI Maddəsi, bu Maddənin tətbiqinə dair Saziş və GATT-ın VI, XVI və XXIII Maddələrinin Şərhi və Tətbiqinə dair Sazişə uyğun olaraq dempinqə qarşı vergi və ya kompensasiya tədbirləri həyata keçirmək hüququna malikdirlər.

Maddə 12

Tərəflər, ictimai əxlaq normaları, dövlət siyasəti və ya milli təhlükəsizlik, insan, heyvan və bitki təhlükəsizliyi, təbii ehtiyatların, həmçinin mədəni, tarixi, arxeoloji dəyərlərin və əqli mülkiyyət hüquqlarının qorunması, qiymətli metalların ticarəti ilə əlaqədar, o cümlədən ixrac, idxal və tranzitində milli qanunvericilik və beynəlxalq öhdəliklər nəzərə alınmaqla qadağa və ya məhdudiyyət tətbiq edə bilərlər. Lakin, bu məhdudiyyətlər səbəbsiz şəkildə və ya xəbər verilmədən tətbiq edilməməli və gizli ticari məhdudiyyət təşkil etməməlidir.

Tədiyyə Balansının Qorunması ilə bağlı Məhdudiyyətlər
Maddə 13

1. Ciddi tədiyyə balansı və xarici maliyyə çətinliklərinin və ya bu cür təhdidlərin yaranması halında, Tərəflərdən biri üzərinə güzəştə getmək öhdəliyi götürdüyü malların ticarətinə, həmin güzəştlərlə

bağlı ödəmə və köçürmələr daxil olmaqla, məhdudiyyətlər qoya bilər və ya məhdudiyyətləri saxlaya bilər.

2. İqtisadi inkişaf və iqtisadi yeniliklər prosesində olan Tərəflərdən birinin tədiyyə balansı üzərində olan birtərəfli təzyiqlərin, digər tədbirlərlə yanaşı iqtisadi inkişaf və iqtisadi dəyişiklik proqramının tətbiq edilə bilməsi üçün maliyyə ehtiyatlarının kifayət edəcək səviyyədə qorunması məqsədilə, məhdudiyyətlərin tətbiq edilməsinin mümkünlüyü razılaşdırılmışdır.

3. bu maddənin 1-ci bəndində qeyd edilmiş məhdudiyyətlər,

a. Digər Tərəfin ticari, iqtisadi və maliyyə maraqlarına lüzumsuz zərər vurmayacaq,
b. Bu maddənin 1-ci bəndində qeyd edilmiş məsələnin həlli ilə bağlı həddindən artıq dərəcədə olmayacaq.
c. Müvəqqəti olacaq və bu maddənin 1-ci bəndində göstərilən vəziyyətin düzəlməsi halında mərhələli olaraq aradan qaldırılacaq.

Xidmət Ticarəti
Maddə 14

Tərəflər Türkiyə və Azərbaycanın fiziki və hüquqi şəxslərinin bir-birinin ölkəsində xidmət göstərməsinə imkan verəcək addımlar atmaq məsələsində razılığa gəlmişlər.

Tərəflər arasında ticarət ehtiyaclarına uyğun şəkildə nəqliyyatın inkişafı məqsədilə bazara giriş və nəqliyyat xidmətlərinin təmin olunması üçün lazımi tədbirlər görüləcək.

Maddə 15

Xidmət ticarətinə dair müddəalar milli təhlükəsizlik, ictimai sağlamlıq kimi səbəblər üzündən tətbiq edilən məhdudiyyətlər nəzərə alınmaqla tətbiq ediləcək.

Bu müddəalar öz funksiyalarını yerinə yetirilməsi məqsədilə dövlət hakimiyyəti orqanlarının göstərdiyi xidmətlərə tətbiq edilə bilməz.

Maddə 16

Bu Sazişin müddəaları bu Sazişdən irəli gələn hüquqların həyata keçirilməsini əhatə etmədiyi zaman fiziki şəxslərin ölkəyə gəlməsi, qalması, işləməsi, xidmət göstərməsi və bu kimi mövzularda Tərəfləri öz qanun və qanunvericiliyini tətbiq etməkdən məhrum etməz.

Bu müddəa 15-ci Maddənin tətbiqinə xələl gətirmir.

Maddə 17

Tərəflərdən biri tərəfindən müəyyən bir xidmət sektoru üçün edilən güzəştlər, GATS-da həmin sektor üçün edilən güzəştlərdən daha az əlverişli olmamalıdır.

Maddə 18

Bu Sazişin xidmət ticarəti ilə bağlı maddələri arasında nəzərdə tutulmuş məqsədlər baxımından, Türkiyə və Azərbaycan tərəfindən GATS-ın V Maddəsinə əsasən təşkil olunan iqtisadi inteqrasiya məqsədilə həyata keçirilən tədbirlər nəzərə alınmayacaq.

Sənaye Sahəsində Əməkdaşlıq
Maddə 19

Əməkdaşlıq xüsusilə aşağıdakıları həyata keçirmək məqsədini daşıyır:

- KOS-lar daxil olmaqla, iqtisadi qurumlar arasında əlaqələrin təkmilləşdirilməsi.
- Şirkət səviyyəsində idarəetmənin yaxşılaşdırılması,
- İqtisadi inkişaf və özəl sektorun gücləndirilməsi üçün özəlləşdirmə prosesi,
- Davamlı inkişaf və ətraf mühitin qorunması şərti ilə, həm dövlət həm də özəl sektorda sənayeni yenidən qurmaq və müasirləşdirmək,
- Bazar iqtisadiyyatı əsaslı ticarət qaydaları çərçivəsində nou-hau mübadiləsi.

Qarşılıqlı İnvestisiyaların Artırılması
Maddə 20

Tərəflər iki ölkə arasında qarşılıqlı investisiyaların artırılması, investisiya imkanlarının müəyyən edilməsi, investisiya mühitinin inkişafı və investisiyalarla bağlı köçürmələr_məsələlərində əməkdaşlıq edəcəklər.

Bu əməkdaşlığın məqsədləri, xüsusilə aşağıdakı istiqamətlərdə olacaq:

- Ticarət yarmarkaları, sərgilər və digər bu kimi tədbirlərlə yanaşı investisiya imkanları mövzularında məlumat mübadiləsinin aparılması,
- İnvestisiya ilə bağlı qanunlar, qaydalar və prosedurlar haqqında məlumat mübadiləsinin aparılması.

Dağ-mədən Sənayesi və Xammal
Maddə 21

Tərəflər dağ-mədən sənayesi və xammal sektorlarında əməkdaşlığın inkişafı istiqamətində çalışacaqlar.

Əməkdaşlıq əsasən aşağıdakı istiqamətdə həyata keçiriləcəkdir:

- Dağ-mədən və dəmir tərkibi olmayan metallar sektorlarında məlumat mübadiləsi,
- Ətraf mühit qanunvericiliyinin təkmilləşdirilməsi və tətbiqi,
- Təlimlər.

Elm və Texnologiya Sahəsində Əməkdaşlıq
Maddə 22

Tərəflər qarşılıqlı fayda və mənbələrdən istifadə imkanlarının əldə edilməsi məqsədilə əqli mülkiyyət hüquqlarının səmərəli şəkildə qorunması ilə bağlı yetərli tədbirlər nəzərə alınmaqla, mülki elmi tədqiqat və texnoloji inkişaf məsələlərində əməkdaşlıq edəcəklər.

Əməkdaşlıq xüsusilə aşağıdakı sahələri əhatə edəcək:

- Elmi və texniki məlumat mübadiləsi,
- Birgə elmi tədqiqat və texnoloji inkişaf fəaliyyətləri,

- Hər iki Tərəfin elmi tədqiqat və texnoloji inkişaf fəaliyyətlərində iştirak edən elm xadimləri və tədqiqatçılar üçün təşkil olunacaq təhsil fəaliyyətləri və mübadilə proqramları.

Energetika
Maddə 23

Energetika sahəsindəki əməkdaşlıq bazar iqtisadiyyatı prinsipləri və Avropa Enerji Xartiyası çərçivəsində həyata keçiriləcək.

Digər məsələlərlə yanaşı əməkdaşlıq aşağıdakı sahələri də əhatə edəcək:

- İqtisadi və ətraf mühit faktorları nəzərə alınaraq, enerji təminatının keyfiyyətinin və təhlükəsizliyinin təkmilləşdirilməsi,
- Energetika siyasətinin planlaşdırılması,
- Bazar iqtisadiyyatına uyğun olaraq energetika sektorunda idarəetmə və prosedurların təkmilləşdirilməsi,
- Energetika üzrə investisiya və ticarətin təşviqi üçün lazımi institusional, qanuni, maliyyə və digər şərtlərin tətbiqinin artırılması,
- Enerjiyə qənaət və səmərəliliyin təşviqi,
- Təbii qaz təminatı daxil olmaqla, energetika infrastrukturunun müasirləşdirilməsi,
- Energetika sektorunda idarəçilik və texniki təlimlər,
- Enerji növlərinə görə təminat və istehlak üzrə enerji texnologiyalarının təkmilləşdirilməsi,
- Xəzər hövzəsi enerji ehtiyatlarının Türkiyə ərazisindən dünya bazarlarına nəqli və tranzitində əməkdaşlığın davam etdirilməsi.

Nəqliyyat
Maddə 24

Tərəflər nəqliyyat sahəsində əməkdaşlığı inkişaf etdirərək gücləndirəcəklər. Bu əməkdaşlıq, nəqliyyat sistemi və yol şəbəkələrinin yenidən qurulması və müasirləşdirilməsini əhatə edəcək. Məqsədəuyğun hesab edilən yerlərdə Türkiyə ilə Azərbaycan arasında nəqliyyat sistemləri uyğunlaşdırılacaq.

Əməkdaşlıq aşağıdakı məsələləri də əhatə edir:

- Birgə maraq doğuran əsas yolların, o cümlədən dəmir yolları, su yolları, avtomobil yolları, limanlar, hava limanları və hava nəqliyyatının müasirləşdirilməsi və inkişaf etdirilməsi,
- Çoxnövlü nəqliyyatın inkişafı və dəstəklənməsi,
- Birgə tədqiqat və inkişaf proqramlarının dəstəklənməsi,
- Nəqliyyat sektorunun özəlləşdirilməsini əhatə edən siyasətin işlənib hazırlanması və tətbiqi məqsədi ilə hüquqi və institusional çərçivənin hazırlanması.

Rabitə və İnformasiya Texnologiyaları
Maddə 25

Tərəflər rabitə və informasiya texnologiyaları sahəsində aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

- Rabitə və informasiya sahəsində mövcud resurslardan birgə istifadə olunması,
- Elektron imza və elektron sənəd dövriyyəsi sahəsində əməkdaşlıq edilməsi,
- Türkiyə – Azərbaycan iş adamlarının telekommunikasiya forumunun mütəmadi olaraq təşkil edilməsi.

Maliyyə Xidmətləri
Maddə 26

Tərəflər bank işi, sığorta və digər maliyyə xidmətləri sahələrində məqsədəuyğun əməkdaşlıq çərçivəsini yaratmaq və inkişaf etdirmək məqsədi ilə əməkdaşlıq edəcəklər.

Turizm
Maddə 27

Tərəflər aşağıdakı məsələlər üzrə əməkdaşlığı inkişaf etdirərək genişləndirəcəklər:

- Turist mübadiləsinin asanlaşdırılması,
- Məlumat mübadiləsinin artırılması,
- Nou-hau mübadiləsi,
- Birgə fəaliyyət imkanlarının araşdırılması,
- Rəsmi turizm təşkilatları arasında əməkdaşlıq,
- Birbaşa investisiyalar,
- Birgə turizm layihələri üzrə əməkdaşlıq.

Kiçik və Orta Sahibkarlıq (KOS)
Maddə 28

Tərəflər Türk və Azərbaycan KOS-ları arasında əməkdaşlığı gücləndirəcək və aşağıdakı məsələlər üzrə məlumat və nou-hau mübadiləsini təşviq edəcəklər:

- KOS-lar üçün hüquqi, texniki, maliyyə çərçivəsinin təşkili və KOS-ların yaradılması, inkişaf etdirilməsi, həmçinin ölkə hüdudlarından kənarda əməkdaşlıq imkanlarının genişləndirilməsi üçün Türk və Azərbaycan sahibkarları arasında müntəzəm əlaqələrin qurulması,
- KOS-ların səmərəli fəaliyyəti üçün keyfiyyətə nəzarət sistemləri, o cümlədən, mühasibat, marketinq, idarəetmə və bu kimi xidmətlər göstərən agentliklərin yaradılması və inkişaf etdirilməsi,
- KOS-lar arasında məlumat mübadiləsinin təmin edilməsi.

Gömrük
Maddə 29

Tərəflər gömrük sistemləri arasında əlaqələri genişləndirəcəklər.

Əməkdaşlıq xüsusilə aşağıdakı sahələr üzrə həyata keçiriləcəkdir:

- Məlumat mübadiləsi,
- İş metodlarının təkmilləşdirilməsi,
- Tərəflər arasında ticarət predmeti olan mallar ilə əlaqədar gömrük prosedurlarının uyğunlaşdırılması və sadələşdirilməsi,
- Gömrük nəzarət məntəqələrində kompüter sistemləri daxil olmaqla, müasir gömrük məlumat sistemlərinin tətbiqi,
- Seminar və kursların təşkili.

Standartlar, Texniki Prosedurlar və SPS Tədbirləri
Maddə 30

Tərəflər qarşılıqlı ticarətə və ya yerli istehsalatın qorunmasına maneçilik göstərə bilən texniki şərtlərin, uyğunluğun qiymətləndirilməsi və

standartlar prosedurlarının hazırlanmamasını, qəbul edilməməsini və tətbiq edilməməsini təmin edəcəklər.

Tərəflər bu çərçivə daxilində aşağıdakı məsələlərin həyata keçirilməsini təmin edəcəklər:

A. Elmi prinsiplərə əsaslanan insan, heyvan sağlamlığı və bitki mühafizəsinə dair tədbirlər elmi məlumatları və regional şəraiti əsas tutaraq tətbiq ediləcəkdir. Bu tədbirlər əsaslı dəlillər olmadan həyata keçirilməyəcəkdir.

B. Tərəflər göstərilən tədbirləri həyata keçirərkən ticarətdə lüzumsuz maneələrin yaranmasının qarşısının alınmasına səy göstərəcəklər.

Digər Sazişlər Çərçivəsində Həyata Keçirilən Ticarət Əlaqələri
Maddə 31

Bu Saziş Tərəflərin üçüncü tərəflər ilə mövcud gömrük birliklərinin, azad ticarət sahələrinin, üstün ticarət sazişlərinin və ya sərhəd ticarətinin davam etdirilməsinə və ya yaradılmasına xələl gətirməyəcək.

Əlavə və Dəyişikliklər
Maddə 32

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 33-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 33

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Bu Saziş 10 il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi növbəti bir il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində "_6_" noyabr 2007-ci il tarixində hər biri Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
Kürşat Tüzmən Dövlət Bakanı	Abid Şərifov Baş nazirin müavini

[TURKISH TEXT – TEXTE TURC]

TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ İLE AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ ARASINDA ORTAKLIK VE İŞBİRLİĞİ ANLAŞMASI

Türkiye Cumhuriyeti Hükümeti ve Azerbaycan Cumhuriyeti Hükümeti (bundan sonra Taraflar olarak anılacaktır),

- İki ülke arasındaki 13 Nisan 2004 tarihli "Uzun Vadeli Ekonomik ve Ticari İşbirliği Anlaşması"nın yanı sıra, aralarında yürürlükte bulunan diğer anlaşma, protokol ve sözleşmelerle oluşturulan yasal zeminde geçmişte kurulmuş olan ilişkilerin güçlendirilmesi ve derinleştirilmesi amacıyla ortaklık ve işbirliği kurulması arzularını kaydederek,
- İki ülke halkları arasındaki yakın ilişkiler ile ortak tarih ve kültür mirasını dikkate alarak,
- Tarafların, DTÖ ilkeleri ışığında ticaretin serbestleştirilmesinden yana olduklarını dikkate alarak,
- Bu Anlaşmanın, ekonomik yeniden yapılanma ve teknolojik gelişme için gerekli olan ticaret ve yatırımların geliştirilmesi başta olmak üzere, taraflar arasında ekonomik ilişkiler için yeni bir ortam sağlayacağına inanmış olarak,
- Ticari ve ekonomik ilişkilerin ortak çıkarlar ve karşılıklı fayda esasında ve uzun vadeli ve istikrarli bir temelde tesisi ve daha da geliştirilmesi, ülkelerinin ekonomik potansiyelinden daha üst düzeyde istifade edilmesi ve her iki ülke halklarının refah düzeyinin daha da yükseltilmesini amaçlayarak,

aşağıdaki hususlarda anlaşmışlardır.

Tanımlar
Madde 1

İşbu Anlaşmanın amaçları bakımından,

a. "Tarife" Tarafların Tarife düzenlemelerinde tanımlanan tarifeleri ve tarife ile eş etkili resim ve harçları ifade eder.
b. "Tarife dışı engeller", tarife dışında Taraflar arasında ithalatı kısıtlayıcı ve ticareti engelleyici etkiye sahip tüm tedbir, düzenleme ya da uygulamaları ifade eder.
c. "Mallar" Armonize Mal Tanımlama ve Kodlama Sisteminde yer alan malları içerir.

Amaçlar
Madde 2

İşbu anlaşmanın amacı, Türkiye ile Azerbaycan arasındaki ticari ilişkilerin özellikle

a. Madde 3'de atıfta bulunulan genel prensipler;
b. Tarifelerin azaltılması ve tarife dışı engellerin kaldırılması,
c. Ticaretin taraflar arasındaki ekonomik ilişkilerin uyumlu gelişimine katkıda bulunacak şekilde teşviki ve artırılması,
d. Taraflar arasında adil rekabete imkan veren şartların yaratılması,
e. Taraflar arasında ticaretin sürdürülebilir şekilde artırılması için daha öngörülebilir ve güvenli bir ortamın oluşturulması,
f. Taraflar arasında ticari mübadelenin çeşitlendirilmesine imkan sağlanması,

yoluyla güçlendirilmesidir.

Genel Prensipler
Madde 3

İşbu Anlaşma, ekonomik kalkınma düzeylerini, dış ticaretlerini, gümrük vergisi politikaları ve ithalat prosedürlerini dikkate alarak, Taraflara eşit düzeyde fayda sağlamak amacıyla karşılıklı çıkarların tam mütekabiliyeti esasında yürütülecektir.

Ticari ve Ekonomik İşbirliği
Madde 4

Taraflar arasında ticari ve ekonomik işbirliği konularında tesis edilen düzenli diyalog, ticari ve ekonomik yakınlaşmanın artırılması, iki ülke arasındaki ikili ilişkilere destek olunması ve işbirliğinin yeni boyutlara taşınmasına katkıda bulunulması amacıyla geliştirilecek ve yoğunlaştırılacaktır.

Madde 5

Taraflar, ülkelerinde ithalat ve ihracata uygulanan Tarifeler ve benzeri ödemelerle ilgili olarak birbirlerine en çok kayrılan ülke prensibini uygulayacaklardır.

Bu maddenin hükümleri,

- Sınır ticaretini kolaylaştırmak için komşu ülkelere tanınan imtiyazlara,
- Gümrük birliği veya serbest ticaret bölgesi gibi taraf oldukları veya olabilecekleri anlaşmalardan kaynaklanan imtiyazlara,
- Gelişme yolundaki ülkeler ile ticari ve ekonomik ilişkiler alanında aktedilen özel düzenlemelerle sağlanan imtiyazlara

tatbik edilmeyecektir.

Madde 6

Taraflar, serbest transit geçiş ilkesinin işbu Anlaşmanın amaçlarının yerine getirilmesi için zorunlu bir koşul olduğu konusunda anlaşmışlardır. Bu itibarla, bir tarafın gümrük sınırlarından çıkan veya diğer tarafın gümrüklerine giden ürünler için kendi ülkelerinden serbest geçiş hakkı tanınacaktır.

Taraflar arasında GATT'ın 5. maddesinin 2,3,4 ve 5. bentlerinde belirtilen hükümler geçerli olacaktır.

İşbu Maddede yer alan hükümler, Taraflar arasında özellikle ulaştırma gibi sektörler ile çeşitli ürünler için üzerinde mutabık kalınmış veya kalınacak anlaşmalara ve taraf oldukları uluslararası anlaşmalardan kaynaklanan yükümlülüklere halel getirmez.

Madde 7

Uluslararası sözleşmelerden doğan hakları ve yükümlülükleri saklı kalmak kaydıyla, Taraflar geçici ithalatta gümrük vergisi almayacaktır.

Ulusal Muamele
Madde 8

Herhangi bir Tarafın diğer Tarafın ülkesine ithal edilmiş mallarına, tarife ve eş etkili vergilerinin ödenmiş olması kaydıyla, bu malların satışı, satış teklifi, alışı, nakliyesi, dağıtımı ve kullanımını etkileyen yasalar, yönetmelikler ve düzenlemeler bakımından, ulusal menşeli mallardan daha az elverişli bir muamele uygulanmayacaktır.

Madde 9

İki ülke arasındaki ticari ilişkilerin gelişmesini engelleyen tarife dışı engeller, uluslararası taahhütler ve ulusal mevzuatlar çerçevesinde kaldırılacaktır.

Madde 10

Ticaret hacminin artırılmasını teminen Tercihli Ticaret Anlaşması da dahil olmak üzere gerekli bütün yasal düzenlemelerin tamamlanması amacıyla görüşmeler başlatılacaktır.

Madde 11

Herhangi bir ürünün Taraflardan birisine, söz konusu veya benzeri ürünün yerli imalatçılarına zarar verecek ya da zarar tehdidi oluşturacak miktarlarda veya koşullarda ithal edilmesi halinde Tarafların Dünya Ticaret Örgütü Korunma Tedbirleri Anlaşması çerçevesinde önlem alma hakları saklıdır.

Tarafların, GATT'ın VI. Maddesi, bu Maddenin uygulanmasına ilişkin Anlaşma ve GATT'ın VI., XVI ve XXIII. Maddelerinin Yorumu ve Uygulanmasına İlişkin Anlaşmaya uygun olarak dampinge karşı vergi veya telafi edici önlem almak hakları saklıdır.

Madde 12

Taraflar, kamu ahlakı, kamu politikası veya kamu güvenliği, insan, hayvan ve bitki sağlığı, doğal kaynakların korunması, sanatsal, tarihi ve arkeolojik değerlerin korunması, fikri mülkiyet haklarının korunması, değerli metallerin ticaretine ilişkin olarak milli mevzuat ve uluslararası yükümlülükler dikkate alınarak ihracat, ithalat ve transit geçiş konularında yasaklama veya kısıtlama uygulayabilirler. Ancak, bu kısıtlamalar keyfi olarak veya haber verilmeksizin uygulanmamalı, bu uygulamalar gizli bir ticari kısıtlama içermemelidir.

Ödemeler Dengesinin Korunmasına Yönelik Kısıtlamalar
Madde 13

1.Ciddi ödemeler dengesi ve dış mali güçlüklerin veya bu tür tehditlerin zuhuru halinde, Taraflardan biri taviz vermeyi taahhüt ettiği malların ticaretine, söz konusu tavizlere ilişkin ödeme ve transferler de dahil olmak üzere sınırlamalar getirebilir veya sınırlamaları muhafaza edebilir.

2. Ekonomik kalkınma ve ekonomik dönüşüm sürecindeki Taraflardan birinin ödemeler dengesi üzerindeki münhasır baskıların, diğer tedbirlerin yanısıra ekonomik kalkınma ve ekonomik dönüşüm programının uygulanabilmesi için mali rezervlerin yeterli düzeyde korunması amacıyla kısıtlamalara başvurulmasını gerekli kılabileceği kabul edilmiştir.

3. Bu maddenin 1. paragrafında sözü edilen kısıtlamalar,

a. Diğer Tarafın ticari, ekonomik ve mali çıkarlarına gereksiz zarar vermeyecek,
b. Bu maddenin 1. paragrafında tanımlanan ahvalin üstesinden gelinmesi için gerekenden fazla olmayacak,
c. Geçici olacak ve bu maddenin 1. paragrafında belirtilen durumun düzelmesi halinde aşamalı olarak kaldırılacaktır.

Hizmet Ticareti
Madde 14

Taraflar, Türk ve Azerbaycan gerçek ve tüzel kişilerinin, birbirlerinin ülkelerinde hizmet vermelerine imkan sağlayacak adımları atmak konusunda mutabık kalmışlardır.

Taraflar arasında ticari ihtiyaçlara uygun şekilde taşımacılığın geliştirilmesi amacıyla pazara giriş ve ulaştırma hizmetlerinin temini için gerekli düzenlemeler yapılacaktır.

Madde 15

Hizmet ticaretine ilişkin hükümler kamu güvenliği, kamu sağlığı gibi gerekçelerle uygulanan kısıtlamalar dikkate alınarak uygulanacaktır.

Bu hükümler, kamu hakimiyeti organlarınca devletin asli faaliyetlerinin yerine getirildiği hizmetlere uygulanmaz.

Madde 16

İşbu Anlaşmadaki hiçbir hüküm, bu Anlaşmadan doğan haklarını kullanmayı engellemediği sürece, Tarafları gerçek kişilerin ülkelerine girişi, kalışı, çalışması, hizmet tedariki ve benzeri konularda kendi yasa ve mevzuatını uygulamaktan alıkoyamaz.

Bu hüküm, 15. Maddenin uygulanmasını etkilemez.

Madde 17

Taraflardan birisi tarafından belirli bir hizmet sektörü için tanınan tavizler, GATS'ta söz konusu sektör için tanımlanan tavizlerden daha az elverişli olamaz.

Madde 18

İşbu Anlaşmanın hizmet ticaretine ilişkin maddeleri arasında belirtilen amaçlar açısından, Türkiye ve Azerbaycan tarafından GATS'ın V. Maddesi uyarınca oluşturulan ekonomik bütünleşme hareketleri kapsamında tanınmış olan tavizler dikkate alınmayacaktır.

Sanayi Alanında İşbirliği
Madde 19

İşbirliği özellikle aşağıdakileri gerçekleştirme amaçlıdır:

- KOBİ'ler de dahil olmak üzere, ekonomik birimler arasında bağlantıların geliştirilmesi,
- Şirket düzeyinde yönetimin iyileştirilmesi,
- Ekonomik kalkınma ve özel sektörün kuvvetlendirilmesi için özelleştirme süreci,
- Sürdürülebilir kalkınma ve çevre koruma koşulları altında hem kamu hem de özel sektörde sanayiyi yeniden yapılandırma ve modernize etme,
- Piyasa ekonomisi temelli ticari kurallar ile know-how transferi.

Karşılıklı Yatırımların Geliştirilmesi
Madde 20

Taraflar, iki ülke arasında karşılıklı yatırımların artırılması, yatırım imkanlarının tanıtılması, yatırım ortamının geliştirilmesi ve sermaye transferi konularında işbirliği yapacaktır.

Söz konusu işbirliğinin hedefleri, özellikle aşağıdaki gelişmeye yönelik olacaktır:

- Ticari fuarlar, sergiler ve diğer olaylar gibi yatırım imkanları konularında bilgi teatisinde bulunulması,
- Yatırım konusundaki yasalar, düzenlemeler ve idari süreç hakkında bilgi teatisinde bulunulması.

Madencilik ve Ham Maddeler
Madde 21

Taraflar, madencilik ve hammadde sektörlerinde işbirliğinin geliştirilmesi yönünde çalışacaktır.

İşbirliği özellikle aşağıdaki konularda yoğunlaşacaktır:

- Madencilik ve demir-dışı metaller sektörlerinde bilgi teatisi,
- Çevre konusundaki mevzuatın geliştirilmesi ve uygulanması,
- Eğitim.

Bilim ve Teknoloji Alanında İşbirliği
Madde 22

Taraflar, karşılıklı fayda esasına dayalı olarak ve kaynakların elde edilebilirliği, fikri mülkiyet haklarının etkili korunmasına bağlı yeterli önlemler dikkate alınarak, sivil bilimsel araştırma ve teknolojik gelişme (AR-GE) konularında işbirliğini geliştireceklerdir.

İşbirliği özellikle aşağıdaki alanları kapsayacaktır:
- Bilimsel ve teknik bilgi teatisi,
- Ortak AR-GE faaliyetleri,
- Her iki taraftan da AR-GE çalışmalarına katılan bilim adamı, araştırmacı ve teknikerler için düzenlenecek eğitim aktiviteleri ve değişim programları.

Enerji
Madde 23

Enerji alanındaki işbirliği, pazar ekonomisi ilkeleri ve Avrupa Enerji Şartı çerçevesinde gerçekleştirilecektir.

İşbirliği, diğer konularla birlikte aşağıdaki alanları kapsayacaktır:

- Ekonomik ve çevresel faktörler dikkate alınarak, enerji arzının kalitesinin ve güvenliğinin geliştirmesi,
- Enerji politikasının planlanması,
- Piyasa ekonomisine uygun olarak enerji sektöründe işletme ve düzenlemelerin geliştirilmesi,
- Enerji yatırım ve ticaretine teşvik için gerekli kurumsal, yasal, mali ve diğer şartların uygulama oranlarının artırılması,
- Enerji tasarrufu ve etkinliğinin teşvik edilmesi,
- Doğal gaz arzı dahil enerji altyapısının modernizasyonu,
- Enerji sektöründe yönetim ve teknik eğitim,
- Enerji türlerine göre arzın ve nihai kullanımında enerji teknolojilerinin geliştirilmesi,
- Hazar havzası enerji kaynaklarının Türkiye üzerinden dünya pazarlarına ulaştırılmasında ve transit geçişinde işbirliğinin sürdürülmesi.

Taşımacılık
Madde 24

Taraflar, taşımacılık alanında işbirliğini geliştirip güçlendireceklerdir. Bu işbirliği, ulaşım sistemi ve yol ağlarının yeniden yapılandırılması ve modernize edilmesini amaçlayacaktır. Uygun görüldüğü yerlerde, Türkiye ve Azerbaycan arasında ulaşım sistemleri uyumlaştırılacaktır.

İşbirliği aşağıdaki hususları da kapsayacaktır:

- Ortak ilgi alanına giren ana güzergahlar ve demir yolları, su yolları, kara yolları, limanlar, hava limanları ve hava taşımacılığının modernizasyonu ve geliştirilmesi,
- Çok modlu taşımacılığın geliştirilmesi ve desteklenmesi,
- Ortak araştırma ve geliştirme programlarının desteklenmesi,
- Ulaştırma sektörünün özelleştirilmesini de içeren politikalar geliştirilmesi ve uygulanması amacıyla yasal ve kurumsal çerçevenin hazırlanması.

Haberleşme ve Bilişim Teknolojileri
Madde 25

Taraflar haberleşme ve bilgi teknolojisi alanlarında aşağıda yer alan hususlarda işbirliğinde bulunacaklardır

- Haberleşme ve bilişim alanlarında mevcut kaynaklardan ortaklaşa yararlanılması,
- Elektronik imza ve elektronik belge değişimi alanlarında işbirliği yapılması,
- Türk ve Azerbaycan işadamları arasında daimi bir telekomünikasyon forumu teşkil edilmesi.

Mali Hizmetler
Madde 26

Taraflar, bankacılık, sigorta ve diğer finansal hizmetler alanlarında uygun bir işbirliği çerçevesi oluşturmak ve geliştirmek amacıyla hareket edecektir.

Turizm
Madde 27

Taraflar, aşağıdaki alanlarda işbirliğine ivme kazandırıp geliştireceklerdir:

- Turist mübadelesinin kolaylaştırması,
- Bilgi akışının artırılması,
- Know-how transferi,
- Ortak çalışma imkanlarının araştırılması,
- Resmi turizm kuruluşları arasında işbirliği,
- Doğrudan yatırımlar,
- Ortak turizm projelerinde işbirliği.

Küçük ve Orta Ölçekli İşletmeler (KOBİ)
Madde 28

Taraflar, Türk ve Azeri KOBİ'leri arasında işbirliğini güçlendirecek ve aşağıdaki alanlarda bilgi ve know-how değişimini teşvik edeceklerdir.

- KOBİ'ler için yasal, teknik, finansal çerçevenin oluşturulması ve KOBİ'lerin kurulması, geliştirilmesi ve ülke sınırları dışında işbirliği imkanlarının artırılması için Türk ve Azerbaycan işadamları arasında düzenli bağlantıların tesis edilmesi,
- KOBİ'lerin etkin faaliyeti için kalite kontrol sistemleri, muhasebe, pazarlama ve işletme gibi hizmetleri veren ajansların oluşturulması ve geliştirilmesi,
- KOBİ'lere bilgi akımının sağlanması.

Gümrükler
Madde 29

Taraflar, gümrük sistemleri arasındaki uyumu artıracaktır. İşbirliği özellikle aşağıdaki alanlarda yoğunlaşacaktır:

- Bilgi teatisi,
- Çalışma metodlarının geliştirilmesi,
- Taraflar arasında ticarete konu olan mallar ile ilgili gümrük süreçlerinin uyumlaştırılması ve basitleştirilmesi,
- Gümrük kontrol noktalarında bilgisayar bazlı sistemler de dahil olmak üzere, modern gümrük bilgi sistemlerinin uygulanması,
- Seminer ve kurslar düzenlenmesi,

Standartlar,Teknik Düzenlemeler ve SPS Önlemleri
Madde 30

Taraflar, karşılıklı ticarete veya yerli üretimin korunmasına engel olabilecek teknik düzenlemelerin, uygunluk değerlendirme ve standartlara ilişkin prosedürlerin hazırlanmamasını, kabul edilmemesini ve uygulanmamasını sağlayacaklardır.

Taraflar bu çerçevede, aşağıdaki hususları temin edeceklerdir.

a. Bilimsel ilkelere dayanan insan, hayvan ve bitki sağlığına ilişkin tedbirler, bilimsel veriler ile bölgesel koşullar dikkate alınarak uygulanacaktır. Bu tedbirler yeterli kanıtlar olmaksızın hayata geçirilmeyecektir.
b. Bu tedbirler uygulanırken ticarete gereksiz engeller oluşturulmamasına çaba gösterilecektir.

Diğer Anlaşmalar Kapsamında Yürütülen Ticari İlişkiler
Madde 31

İşbu Anlaşma, Tarafların üçüncü taraflarla mevcut gümrük birliklerinin, serbest ticaret alanlarının, tercihli ticaret anlaşmalarının veya sınır ticaretinin sürdürülmesi veya tesis edilmesine halel getirmeyecektir.

İlave ve Değişiklikler
Madde 32

Taraflar, karşılıklı mutabakat esasında, işbu Anlaşmaya, Anlaşmanın ayrılmaz parçası olarak ve Anlaşmanın 33. maddesinde belirtilen prosedür çerçevesinde yürürlüğe girecek protokollerle değişiklikler ve ilaveler yapabilirler.

Madde 33

İşbu Anlaşma, yürürlüğe girmesi için gerekli iç prosedürlerin tamamlandığına ilişkin son bildirimin diplomatik kanallardan alındığı tarihten 30 gün sonra yürürlüğe girer.

İşbu Anlaşma 10 yıl süre ile yürürlükte kalır, yürürlük süresinin bitiminden en az altı ay önce Taraflardan biri Anlaşmayı sona erdirmek istediğini yazılı olarak bildirmedikçe, birer yıllık süreler için yenilenir.

İşbu Anlaşma Bakü'de, 6 Kasım 2007 tarihinde Türkçe ve Azerbaycan dillerinde her ikisi de eşit derecede geçerli, ikişer orijinal nüsha olarak imzalanmıştır.

TÜRKİYE CUMHURİYETİ
HÜKÜMETİ ADINA

Kürşad TÜZMEN
Devlet Bakanı

AZERBAYCAN CUMHURİYETİ
HÜKÜMETİ ADINA

Abid ŞERİFOV
Başbakan Yardımcısı